UOT 297.297.18; 34.341
https://doi.org/10.59849/2710-0820.2024.1.257

**Habil Qurbanov**
*Elm və Təhsil Nazirliyinin Elmi təşkilatların birləşmiş Həmkarlar İttifaqının sədri*
*h.e.d., professor*
*Azərbaycan*
*professorqurbanov@yandex.com*

# İSLAM HÜQUQU VƏ BEYNƏLXALQ HÜQUQ BAXIMINDAN QAÇQINLARIN HÜQUQ VƏ TƏMİNATLARINDA ƏSAS MÜDDƏALAR (MÜQAYİSƏLİ TƏHLİL)

***Açar sözlər:*** *İslam dini, islam hüququ, beynəlxalq hüquq, beynəlxalq sənədlər, qaçqın, köçkün, sığınacaq.*

**Giriş.** Dünyada baş verən hadisələr nəticəsində (birinci və ikinci dünya müharibəsinin başlanması) qaçqınların sayının artması başlandı və bu, beynəlxalq problemə çevrildi. Dövlətlərin qaçqınlarla bağlı artan narahatlığından sonra (bəzi ölkələrdə qaçqınların məsələsi təhlükəsizlik və sabitliyin olmaması faktına gətirib çıxara bilər) 1951-ci ildə qaçqınların statusu haqqında Konvensiyanın qəbul edilməsi ilə *köçkünlük* beynəlxalq hüquq müqavilələrinə daxil edildi. 1967-ci ildə (1951-ci il Konvensiyasına aid olan, lakin ondan müstəqil olan) Qaçqınların Statusuna dair Protokol Konvensiyanın vaxt və coğrafi məhdudiyyətlərini aradan qaldırmaq üçün qüvvəyə minmişdir. Bundan sonra 1969-cu ildə Afrikada və 1984-cü ildə Latın Amerikasında bu regionlardakı qaçqınların regional problemlərinə cavab olaraq iki regional konfrans keçirildi və bu da nailiyyətlərlə nəticələndi. Qqaçqınlıq problemi hazırkı dövrümüzdə də həll edilməli və araşdırılmalı olan aktual və beynəlxalq problemlərdən biridir.

İslam hüququnda qaçqınlıq *"Əman"* və *Zenhar"* adı altında olan hüquqlardan biridir ki, mötəbər fiqh kitablarının əksəriyyətində, *cihad* fəslində bu başlıqlar adı altında geniş araşdırılır. Hazırkı mövzumuz da İslam dini və beynəlxalq hüquq baxımından qaçqınların məskunlaşması məsələsidir ki, həm müsəlman alimləri, həm də qərb alimləri bu məsələyə müxtəlif aspektlərdən yanaşmışlar.

Məlum olduğu kimi qaçqınlar müsəlman ölkəsinə bu səbəbdən sığınırlar ki, onların həmin ölkədə təhlükəsizliyi təmin olunsun. Amma beynəlxalq hüquq baxımından qaçqınlar təqib qorxusundan digər ölkəyə pənah aparırlar. Məhz bu baxımdan köçkünlük məsələsinin həm İslam dini, həm də beynəlxalq hüquq baxımından müqayisəli aspektdə araşdırılması, yeni həlli yolların tapılması və müxtəlif hüquq sistemlərinin fəaliyyətindən, qarşılıqlı təcrübəsindən faydalanmaq mühüm əhəmiyyət kəsb edir. Buna görə də tədqiqatda bir neçə suallar qarşıya qoymuşuq. Əsas suallar bundan ibarətdir: sığınacaq anlayışı nədir? Onun tərifi və İslam dinində nümunələri hansılardır? Qaçqınlarla necə davranmalı, bununla bağlı vəzifə və öhdəliklər nədən ibarətdir? Beynəlxalq hüquqda sığınacaq anlayışı və bununla bağlı mühüm məsələlər necə dəyərləndirilir? Belə məsələlərdə İslam və beynəlxalq hüquqda oxşar və fərqli cəhətlər nədən ibarətdir? Tədqiqatda bunlarla yanaşı digər suallar da mövcuddur ki, təhlil əsnasında bunlara cavab veriləcəkdir.

**Tədqiqatın hədəfi.** Məcburi köçkünlük problemi İslam hüququnda və beynəlxalq hüquqda mühüm məsələlərdən biridir ki, müsəlman və qərb alimləri buna xüsusi diqqət göstərmişlər. Qaçqın probleminin həlli, hüquq və təminatlarında əsas müddəalar təkcə İslam dinində deyil, beynəlxalq hüquq normalarında, sənədlərdə insan haqlarında, xüsusilə Qaçqınların statusu haqqında Konvensiyada xüsusi maddə-

lərlə təsbit olunmuşdur ki, hazırkı dövrdə də aktual hesab olunur.

## 1. İslam hüququnda və beynəlxalq sənədlərdə məcburi köçkünlərin müdafiəsi

Məlum olduğu kimi köçkünlük İslam dininin zühurundan əvvəl mövcud olmuş və sonralar da davam etmişdir. Buna "Tövbə" surəsinin altıncı ayəsini misal göstərmək olar. Həmin ayədə Allah-Təala buyurur: *"Əgər müşriklərdən biri səndən sığınacaq istəsə, ona sığınacaq ver ki, Allahın kəlamını eşitsin, sonra onu istədiyi təhlükəsiz yerə apar"* (Qurani-Kərim, 9/6). Məhz buna görə də sığınacaq İslam dinində qəbul olunan əsas məsələlərdən biri hesab olunur. 1951-ci ildə köçkünlərin statusu haqqında qəbul olunan Konvensiyaya nəzər saldıqda və onu İslam dinində köçkünlük anlayışı ilə müqayisə etdikdə bir neçə məqam ortaya çıxır:

1. Baxmayaraq ki, həm islam hüququ, həm də beynəlxalq mənbələr baxımından qaçqın qəbul olunan ölkədə yad hesab olunur, lakin islam hüququ və beynəlxalq mənbələrə əsasən burada mühüm məsələ mövcuddur ki, mənbədə xüsusilə vurğulanır. "Qaçqın, müsəlman ölkəsinə sığınacaq üçün müraciət edərək bu ölkədən sığınacaq istəyir; əslində, onun əsas narahatlığı vətənində problem yaşaması deyil, bəlkə müsəlman ölkəsində yaşamaq istəyidir. Amma beynəlxalq hüquqda sözügedən qaçqınlar adətən təqib qorxusundan, həyatlarını, mallarını və azadlıqlarını xilas etmək üçün normal yaşadıqları ölkədən başqa bir ölkəyə köç edirlər" (4. s. 89).

2. Konvensiyanın tərifində köçkün məsələsində əsas element *təqib* və *təqiblərdən qorxu* məsələsidir. Məlum olduğu kimi qorxu subyektiv və nisbi bir anlayışdır, buna görə də onun dəqiq və hərtərəfli təhlili qaçqının vəziyyətinə və onun daimi yaşadığı ölkəyə uyğun olaraq qiymətləndirilir.

3. İslam hüququnda nəzərdə tutulan əsas element *dini ixtilaf* və *şirkdir.*[1] Allaha şərik qərar verənlər (müşriklər) təqib olunmaq və cəzaya məhkum olmalarından qorxduqları üçün sığınacaq istəyirlər. Mənbənin də yazdığı kimi bu qrup insanların əsas hədəfi əqidə və adət-ənənələrini qoruyub saxlamaqla, İslam dövlətinin dəstəyindən faydalanmaq istəyidir (18. s. 167).

Nəzərə almaq lazımdır ki, köçkünlük anlayışı və onun tərifi islam hüququnda və beynəlxalq sənədlərdə fərqlidir; həm islam hüququ, həm də beynəlxalq hüquq qaçqınların hüquqlarını tanımışdır. İslam İnsan Hüquqları Bəyannaməsinin 12-ci maddəsinə əsasən şəriət qanunlarına görə hər bir insanın öz ölkəsinin daxilində və ya xaricində yaşayış yeri seçmək və köçmək hüququ vardır. Zülmə məruz qalan şəxs başqa bir ölkəyə sığına bilər və həmin ölkənin rəhbərliyi köçkünün vəziyyətini nəzərə alaraq onunla humanist davranmalıdır, lakin bir şərtlə ki, sığınacaq səbəbi cinayət törətməklə bağlı olmasın. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 12-ci maddəsinə görə isə, hər bir fərdin təqiblərdən və işgəncələrdən qorunmaq üçün başqa ölkələrə sığınmaq hüququ vardır.

Bir az keçmişə nəzər salsaq, müsəlman alimlərininin əsərlərini, xüsusilə fiqh[2] kitablarını təhlil edərkən şahidi oluruq ki, fəqihlər[3] sığınacağı müqavilə hesab edirlər və onların qaçqın müraciətini qəbul etmək öhdəliyi ilə bağlı heç bir istinadları yoxdur. Buna misal olaraq Əllamə Hilli "Hökmlərin qaydaları" (قواعد الاحكام) adlı əsərində müqavilənin təhlükəsiz olduğunu deyir, həmçinin bunun şərtlərini və xüsusiyyətlərini sadalayır, lakin onu qəbul etməyin vacib olduğunu heç bir yerdə qeyd etməmişdir (3. c. 9, s. 255). Əllamə Hilli sığınacaqla bağlı məsələləri müqavilə adlandırmış, lakin bununla bağlı heç bir öhdəliyi göstərməmişdir. Digər mütəfəkkirlərin də əsərlərinə diqqət etsək bunun şahidi oluruq. Bu, onu deməyə əsas verir ki, müsəlman fəqihləri sığınacağı müqavilə adlandırsalar da, lakin bununla bağlı qaçqın müraciətini qəbul etmək öhdəliyinə dair istinadları yoxdur. Belə hesab etmək olar ki, əgər sığınacağı müqavilə olaraq qəbul etsək, onda dövləti sığınacaq tələbini qəbul etməyə borclu hesab etmək olar. Bu yolla biz sığınacaq prinsipini müqavilə hesab edirik, yəni dövlətin qaçqınlarla bağlı tələblərini rədd edə bilməyəcəyi bir müqavilə. Belə olan halda, problem ortaya çıxa bilər: tərəf qəbul etməyə borclu olduqda, müqavilə bağlamaq vədi etibarsızdır. Çünki müqavilənin əsas xüsusiyyətlərindən biri tərəflərin onu bağlamaq və ya bağlamamaq məsələsidir. Burada sual qarşımıza çıxır: əgər müqavilə bağlanmasa bunun nəticəsi necə olacaqdır? Bu suala cavab olaraq qeyd etməliyik ki, dövlət sığınacaq tələbini qəbul etməyə borcludur, lakin müsəlman ölkəsinin mənafeyinə uyğun şərtlər müqaviləyə daxil

edə bilər. Məşhur şəriət alimləri bu məsələyə aydınlıq gətirmişlər. Beləliklə, sığınacaq iki növə bölünə bilər: rəsmi sığınacaq və qeyri-rəsmi sığınacaq. Rəsmi sığınacaq: müsəlman hakimiyyətinin ayrı-ayrı şəxslərə və ya qeyri-müsəlmanlara verdiyi sığınacaq. Qeyri-rəsmi sığınacaq dedikdə isə, müsəlmanın müsəlman olmayana verdiyi sığınacaq. Təbii ki, müsəlman bir şəxs çoxlu sayda qeyri-müsəlmana sığınacaq verə bilməz və onu qaçqın kimi elan edə də bilməz (7. c. 9, s. 87).

Fiqh kitablarında olan müddəalardan belə nəticəyə gəlmək olar ki, mütəfəkkirlərin əsaslandığı *əman müqaviləsi* islam ayinlərini ifadə edən hərəkətlə bağlıdır. Buna görə də demək olar ki, İslam dövləti açıq elanlar verməklə, hətta konvensiyalara, əhd-peymanlara və protokollara qoşulmaqla *əmanı* (sığınacaq verməyi) qəbul etməyin nə demək olduğunu bəyan etmişdir.

## 1.2. İslam dinində və beynəlxalq sənədlərdə qaçqınların ictimai və iqtisadi hüquqları

İslam dininə əsasən qaçkınların ictimai və iqtisadi hüquqularını təhlil etməzdən əvvəl, yaxşı olar ki, mühüm bir məsələni nəzərdən qaçırmayaq. Burada mühüm bir məsələ dedikdə, sığınacaq müqaviləsinin şərtləri nəzərdə tutulur. Fiqhi kitablarda və müsəlman hüquqşünasların əsas diqqət etdiyi mühüm məsələlərdən biri də korrupsiyanın olmaması və məqsədəuyğunluq şərtidir; yəni *əman* vermək şərtlərindən biri də korrupsiyanın olmamasıdır. Bu, o deməkdir ki, İslam dininə və müsəlmanlara zərər verməmək əsas şərt hesab olunur. Amma məqsədəuyğunluğa gəlincə isə bu, *aman* şərti deyil. Bəzi fəqih alimlərin fikrincə, *əman* müqaviləsinin şərtlərində bu hədd İslama və müsəlmanlara zərər verməmək üçün kifayətdir, lakin müsəlmanlar üçün məqsədəuyğunluğun olması şərt deyil (2. c. 3, s. 266). Ancaq bir az dərindən düşünsək deyə bilərik ki, *aman* vermək üçün təkcə korrupsiyanın olmaması kifayət etmir, burada ruhi və psixoloji rahatlığın da olması vacibdir.

Qaçqınların ictimai və iqtisadi hüquqlarına gəlincə isə, İslam dini bu məsələdə çox həssaslıq göstərmişdir. Burada ən başlıcası qaçqının mülkiyyət hüququdur; daha aydın desək, *mülkiyyət hüququ və maliyyə toxunulmazlığı.* İslam dövlətinin mülkiyyətə sahiblik hüququ, maliyyə toxunulmazlığı və qaçqınların əmlakına qarşı qoruyucu vəzifəsi İslam hüquq sisteminin başlıca prinsiplərindəndir ki, bütün müsəlman hüquqşünasları tərəfindən qəbul olunmuşdur. Bu prinsip o qədər qətidir ki, aman müqaviləsində bunu qeyd etməyə ehtiyac yoxdur, çünki qaçqın olan fərd şəxsi təminata görə əmlakını da təmin edir: “Hər bir insan şəriət qaydaları əsasında mülkiyyətə sahib olmaq hüququna malikdir. Qaçqın, mülkiyyət hüququndan özünə, başqalarına və cəmiyyətə zərər verməyəcək şəkildə istifadə edə bilər və mülkiyyət hüququ (ictimai mənafeyin qorunması və bunun müqabilində təcili və ədalətli təzminata ehtiyac istisna olmaqla) heç kəsdən alına bilməz. Şəriət qaydaları istisna olmaqla, əmlakın müsadirəsi və alınması qadağandır” (8. m.15). Əlbəttə, beynəlxalq sənədlərdə də mülkiyyət hüququ öz əksini tapmışdır və bu, insan hüquqlarından biri adlandırılır: “Hər bir insan təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq hüququna malikdir. Heç kim öz əmlakından özbaşına məhrum edilməməlidir” (20. m. 17). Bundan əlavə, Qaçqınların statusu haqqında Konvensiyada da buna təkid olunmuşdur.

***Qaçqınların iş seçmək hüququ:*** Qaçqınlar digər vətəndaşlar kimi iş seçməkdə azaddırlar və bu hüquqdan istifadə etməkdə bərabərdirlər. Onlar İslam ölkəsində qanuni yaşadıqları müddətdə bundan istifadə etmək hüququna malikdirlər. Beynəlxalq sənədlərdə də bu sahədə müddəalar var. Məsələn, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi iş və peşə seçmək hüququnu rəsmi olaraq tanıyır, həmçinin bu barədə 1951-ci ildə qəbul olunmuş Qaçqınların statusu haqqında Konvensiyada qeyd edilir: “Razılığa gələn Dövlətlər öz ərazilərində qanuni yaşayan qaçqınlara onların muzdla işləmək hüququ barədə eyni vəziyyətdə xarici dövlətlərin vətəndaşları üçün yaradılan ən əlverişli hüquqi şərait yaradacaqlar” (9. m. 17, b.1); “Razılığa gələn Dövlətlər öz ərazilərində qanuni yaşayan qaçqınlara müstəqil surətdə kənd təsərrüfatı, sənaye, sənətkarlıq və ticarətlə məşğul olmaq hüququ, həmçinin ticarət və sənaye ortaqlıqları təsis etmək hüququ barədə mümkün qədər daha əlverişli hüquqi şərait, hər halda eyni vəziyyətdə əcnəbilər üçün adətən yaradılan şərait qədər əlverişli hüququ şərait yaradacaqlar” (9. m. 18).

Qaçqınların ictimai və iqtisadi hüquqları ilə yanaşı, onların təhlükəsizliyi də əsas məsələlər-

dəndir ki, müsəlman alimlər bu məsələləyə də diqqət çəkmişlər. İslam dini baxımından qaçqınların ədalətli təhlükəsizliyinə gəldikdə, qeyd etməliyik ki, şəxsi, ailə və maddi toxunulmazlığın məntiqi təsirlərindən biri də apellyasiya hüququ və məhkəmə təhlükəsizliyidir. Çünki islam dövlətində yaşayan qaçqınlar və digər əcnəbilər üçün belə bir hüquq olmasa, toxunulmazlıqdan danışmaq mənasızdır. Mənbənin də qeyd etdiyi kimi: hər hansı bir əcnəbinin, İslam dövləti vətəndaşları (müsəlmanlar və qeyri-müsəlmanlar) tərəfindən şəxsiyyətinə, nüfuzuna, əmlakına hücum edilərsə və ya hüquqi fakta görə ona zərər vurularsa, onun İslam dövlətinin məhkəməsinə müraciət etmək hüququ vardır və məhkəmə bu prosesi araşdırmağa borcludur (23. s. 576).

İslam dövləti ilə yanaşı, beynəlxalq sənədlərdə də qaçqınların ölkənin məhkəmələrinə müraciət etmək hüququ qəbul olunmuş və rəsmi şəkildə tanınmışdır. Qaçqınların statusu haqqında Konvensiyada buna işarə olunur: 16-cı maddənin 1-ci və 2-ci bəndlərində deyilir: "Hər hansı qaçqın Razılığa gələn Dövlətlərin ərazilərində məhkəmələrə sərbəst müraciət etmək hüququna malikdir"; "Hər bir qaçqın adətən yaşadığı Razılığa gələn Dövlətin ərazisində məhkəməyə müraciət etmək hüququ barədə, o cümlədən hüquqi yardım göstərilməsi və məhkəmə xərcləri ödəməkdən azad edilmək məsələlərində vətəndaşlar ilə eyni şəraitə malik olacaqlar" (9. m. 16, b.1,2). Bəzi müəlliflər Konvensiyanın bu bəndlərində *aman* məsələsinə diqqət çəkərək, bir sıra islam mənbələrinin bu mövzuda təfərrüatlara girməməsini iddia etmişlər. Onların fikrincə *aman,* müqavilə növü olduğundan müqavilənin hazırlanması və bağlanması zamanı müqavilənin şərti kimi daxil edilə bilər, çünki bu, İslam şəriətinə və arzu olunan ictimai asayişə zidd deyil (11. s. 516).)

İslam dinində qaçqınlarla bağlı bir sıra öhdəliklər və bu öhdəliklərdə bəzi istisnalar vardır ki, bunları nəzərdən qaçırmaq olmaz və yaxşı olar ki, diqqəti bu məsələlərə də yönəldək. Qaçqınlıq statusuna görə qaçqınların islam ölkəsində yaşadıqları müddətdə qarşıya qoyulan öhdəliklərə əməl olunmalıdır. Bu öhdəliklərdən birincisi hərbi xidmət və silahlı müdafiə ilə bağlıdır. İslam dövləti qaçqını hərbi xidmətə və ölkənin müdafiəsinə məcbur edə bilməz. Amma onların müdafiədə iştirakı, şəxsən buna hazır olduqları halda, həmçinin məqsədəuyğun olarsa qadağan olunmayacaqdır (22. s. 110). Digər istisna isə vergiləri ödəməklə bağlıdır.

Ümumiyyətlə, qaçqınlar İslam Dövləti vətəndaşlarına xas olan vergiləri ödəməkdən azaddırlar (13. s. 18). İslam dövləti vətəndaşları zəkat və xüms kimi vergiləri ödəməyə borcludurlar, qeyri müsəlmanlar bu vergilərin əvəzində *cəziyə*[4] (jeziah) ödəyirlər, amma qaçqınlar isə qeyd olunan hər üç vergidən[5] azaddırlar. Çünki *aman* adlandırılan müqaviləyə görə, həmçinin müsəlman torpağında yaşayan qaçqın bu verigidən azad olunur. İslamın böyük mütəfəkkiri Şeyx Tusi də bu məsələyə diqqət çəkmişdir: İslam dininin qaydaları əsasında müsəlman torpağında sığınacaq tapmış qaçqın üçün bu əvəzsiz bir müqavilədir. Ancaq bununla belə, müqavilədə əks şərtin qeyd edilməsi məsələsində də heç bir hüquqi qadağa yoxdur (19. s. 42).

## 2. Beynəlxalq hüquq baxımından qaçqınlıq və onun müdafiəsi

Əsas mövzuya keçmzdən əvvəl beynəlxalq hüquq baxımından qaçqın sözünün mənasına və qaçqınların statusuna diqqəti yönəldək və bundan sonra qeyd olunan mövzunu araşdıraq. İlk olaraq qeyd etməliyik ki, "qaçqınlar", "qaçqınlıq", "sığınacaq" kimi terminlər hüquqi quruluşlarda ümumi mənada işlənmişdir. Amma "qaçqın" və "köçkün" sözləri xüsusi olaraq işlənir. Qaçqın, o şəxsə deyilir ki, yaşadığı ölkədə təqiblərdən qorunmaq üçün digər bir ölkəyə pənah aparır. Qaçqınların statusu haqqında Konvensiyanın 1-ci maddəsində qaçqın anlayışı belə izah olunur: *Bu Konvensiyada "qaçqın" dedikdə elə bir şəxs nəzərdə tutulur ki, o:*

*1) 1926-cı il 12 may və 1928-ci il 30 iyun sazişlərin, 1933-cü il 28 oktyabr və 1938-ci il 10 fevral konvensiyalarına, 1939-cu il 14 sentyabr Protokoluna və ya Beynəlxalq Qaçqınlar Təşkilatının nizamnaməsinə görə qaçqın sayılmışdır.*

Beynəlxalq hüquq baxımından qaçqınlıq və onun müdafiəsi məsələsinə gəldikdə isə mövzuya bir az dərindən yanaşsaq deməliyik ki, Millətlər İttifaqının[6] formalaşmasından əvvəl qaçqınlıq problemi müstəqil hüquqi quruma malik deyildi, həmçinin qaçqınlara beynəlxalq dəstək və beynəlxalq ictimaiyyətin onlara diqqəti ilə

bağlı da çox səy göstərilməmişdir. Bu fikri Prakaş Sinha da təsdiq edir: "bu məsələ daxili qanunvericilikdə daha çox cinayətkarların ekstradisiyası, əcnəbilərlə rəftar və s. kimi başlıqlar adı altında qeyd olunurdu və bununla bağlı müstəqil hüquqi bir qurum yox idi" (16. s. 124). Bununla yanaşı, beynəlxalq hüququn klassik yazılarında da daha çox köçkünlük məsələsindən, müharibə hüququndan və onu tənzimləyən qaydalardan bəhs olunur; yəni qonşu ölkənin ərazisinə keçərək özlərini müharibədən qorumağa çalışan köçkünlərin hüququ rəsmi olaraq tanınmışdır. Lakin bəzi müəlliflərin gəldiyi nəticə bundan ibarətdir ki, köçkünlərin müdafiəsi və onlara olunan dəstəyin başlanğıcı Millətlər İttifaqı yarandığı vaxta təsadüf edir (12. s. 22-24).

Qaçqınlıq problemi uzun bir tarixə malik olsa da, son onilliklərdə və XX əsrdən etibarən qaçqınların hüquqları yeni formada qaldırılıb. Xüsusi və regional hallardan asılı olmayaraq, ümumilikdə beynəlxalq hüquqda qaçqınların hüquqlarını təsvir etmək üçün müxtəlif mənbələrə istinad etmək olar. Beynəlxalq mənbələrlə yanaşı, ölkələrin daxili qanunları və beynəlxalq adət-ənənələr də qaçqın hüquqlarının cəlb edilməsi üçün mənbə ola bilər. Bu çərçivədə Cenevrə Konvensiyası və bəyannamələr, insan hüquqları ilə bağlı ümumi razılaşmalar, həmçinin əcnəbi vətəndaşlarla bağlı minimum standartlara riayət edilməsi beynəlxalq adət-ənənələrə istinad edilərək təhlil edilir. Bu gün də əcnəbilərin hüquqları ilə bağlı beynəlxalq standart kimi minimuma riayət edilməsi beynəlxalq adət-ənənələrə əsasən mövcuddur. Ölkələr arasında əcnəbilərə münasibət fərqli olsa da, ancaq aşağıdakıları ümumi hüquq adı altında əcnəbilərə aid etmək olar. Avstriyalı alim əcnəbilərin minimum hüquqlarını belə ümumiləşdirib: xüsusi hüquqda hər bir əcnəbinin bir ölkədə müəyyən olunmuş hədd daxilində həyatının davam etdirilməsi; başqa ölkələrdə onun üçün əldə edilmiş hüquqlar; əcnəbinin fərdi şəxsiyyətinə hörmət tələb edən hüquqlar; məsələn, şəxsi azadlıq, mənzillə təmin olunması, hərəkət azadlığı (gediş-gəliş), məhkəməyə müraciət etmək hüququ, dövlətin dəstəyinə sahib olmaq (14. s. 80). Təbii ki, göstərilən bu maddələr ən əsas hüquqları ümumi şəkildə ifadə edir.

Beynəlxalq hüquq baxımından köçkünlük və onun müdafiəsi məsələsində digər mühüm məsələ İkinci Dünya Müharibəsinin sona çatması və Birləşmiş Millətlər Təşkilatının yaradılmasından sonra Baş Assambleyanın sosial və mədəni məsələlərini araşdıran Üçüncü Komitəsi 1945-ci ilin fevralında qaçqınlarla bağlı qətnamə qəbul etdi. Bu qətnamədən sonra qaçqınlara dəstək verən BMT timsalında təşkilatlar, o cümlədən Beynəlxalq Qaçqınlar Təşkilatı yaradıldı və fəaliyyətə başladı. İqtisadi və Sosial Şura Komitəsinin tövsiyəsi ilə Baş Assambleya 1946-cı ildə ikinci sessiyasında "Beynəlxalq Qaçqınlar Təşkilatı"nı yaratdı (Doc E / 15 Rev 1). Bu təşkilat öz vəzifəsini yerinə yetirərək Avropada məcburi köçkünlərin və hərbi əsirlərin geri qaytarılmasına yardım etmiş və düşərgələrdə yaşayan köçkünlərin dəstəklənməsi və yerləşdirilməsini öhdəsinə götürmüşdür. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 319 saylı Qətnaməni qəbul edərək, Beynəlxalq Qaçqınlar Təşkilatının məsuliyyətini öz üzərinə götürmək üçün Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Ofisini yaratdı, həmçinin Baş Assambleyanın onlara təyin etdiyi şəxslərin məsuliyyətini öz üzərinə götürdü (G.A.R 428, Dec. 1950, part 1). Normal şəraitdə öz vətəndaşlarını qorumaq dövlətin vəzifəsi olsa da, ancaq köçkünlük vəziyyətində bu məsələyə diqqət göstərilməmişdir. Lakin beynəlxalq ictimaiyyət hüquqi sənədlər əsasında qəbul edilmiş davranışın minimum standartlarına zəmanət verməklə bunu həyata keçirmiş və qanuna görə, bu vəzifə Ali Komissarlığa həvalə olunmuşdur (21. s. 390-392).

Beynəlxalq mənbələrdə sığınacaq hüququnun prinsiplərinə gəldikdə isə bu məsələdə mühüm suallarla qarşılaşırıq və bu suallara cavab vermək zəruridir. Ümumiyyətlə, bu mövzuda hansı məsələlərə cavab vermək lazımdır və beynəlxalq mənbələrdə nə araşdırılmalıdır. İlk olaraq qarşımıza bu sual çıxır: şəxsin müəyyən şəraitdə sığınacaqdan istifadə etmək hüququ varmı? Sığınacaq hüququ fərdin tələb etdiyi ölkə üçün öhdəlikdirmi? Bütün etibarlı beynəlxalq mənbələri araşdıraraq demək olar ki, müəyyən vəziyyətlərdə təhlükə və qorxuya məruz qalan insanların başqa ölkələrə sığınmaq hüququ var və həmin insanların sığınacaq tələb etdiyi ölkələr onları qəbul etməyə borcludurlar.[7]

Qaçqınların statusu haqqında Konvensiyanın 31, 32 və 33-cü maddələrində bəzi məqamlar var-

dır və bunlar ondan ibarətdir ki, qaçqının qəbul edilməsi prinsipi qaçqın üçün hüquq, sorğu edilən ölkə üçün isə öhdəlik hesab olunur. Konvensiyanın 31-ci maddəsinin 1-ci bəndində deyilir:

Razılığa gələn Dövlətlər bilavasitə həyat və ya azadlıq üçün 1-ci maddədə nəzərdə tutulan təhlükənin mövcud olduğu ərazidən icazəsiz onların ərazisinə daxil olan və ya ərazisində qalan qaçqınlara buna görə tənbeh tədbirləri tətbiq etməyəcəklər, bu şərtlə ki, həmin qaçqınlar ləngimədən özləri hakimiyyət orqanlarına müraciət edərək qanunsuz daxil olmalarını və ya qalmalarının səbəblərini qənaətbəxş izah etsinlər.

2. Razılığa gələn Dövlətlər qaçqınların hərəkət sərbəstliyini zərurətlə irəli gəlməyən məhdudiyyətlərlə azaltmayacaqlar; belə məhdudiyyətlər yalnız bu qaçqınların həmin ölkədə statusu tənzimlənənə qədər və ya onlar başqa ölkəyə daxil olmaq hüququ əldə etməsi üçün onlara kifayət qədər vaxt verəcək və lazım olan bütün şəraiti yaradacaqlar.

Burada sual yaranır: Razılığa gələn dövlətlər qaçqınlara başqa dövlətin ərazisinə daxil olmaq üçün münasib imkanı və lazımi şərait yaradacaqmı? Bu suala cavab vermək üçün yaxşı olar ki, Konvensiyanın 32 və 33-cü maddələrinin bəndlərinə diqqət edək:

1. Razılığa gələn Dövlətlər öz ərazilərində qanuni yaşayan qaçqınları yalnız dövlət təhlükəsizliyinin və ictimai asayişin qorunması səbəblərinə görə ölkədən çıxaracaqlar;

2. Bu cür qaçqınlar yalnız məhkəmə qaydasında qəbul edilən qərarların icrası naminə çıxarılacaqlar. Dövlət təhlükəsizliyi ilə bağlı üzürlü mülahizələrin olduğu hallardan başqa, qaçqınlara özlərinə bəraət qazandırmaq üçün sübutlar təqdim etmək və lazımi instansiyalara və ya bu instansiyalar tərəfindən xüsusi təyin olunmuş şəxsə və ya şəxslərə şikayət etmək, həmçinin bu məqsədlə öz nümayəndələrini təyin etmək hüququ veriləcəkdir;

3. Razılığa gələn Dövlətlər bu cür qaçqınlara digər ölkəyə daxil olmağa qanuni hüquq almaq üçün kifayət qədər vaxt verəcəklər. Razılığa gələn Dövlətlər bu müddət ərzində zəruri saydıqları daxili xarakterli tədbirləri tətbiq etmək hüququnu saxlayırlar.

Maddə 33. 1. Razılığa gələn Dövlətlər irqi, dini, vətəndaşlıq, müəyyən sosial qrupa mənsubiyyət, siyasi əqidə səbəblərinə görə həyat və ya azadlığını təhlükə gözləyən ölkənin sərhədlərinə heç vəchlə göndərməyəcək və ya qaytarmayacaqlar;

2. Lakin bu qərar üzürlü səbəblərə görə qaldıqları ölkənin təhlükəsizliyi üçün qorxulu sayılan və ya xüsusilə ağır cinayət törətdiyinə görə məhkəmənin qüvvəyə minmiş hökmü ilə məhkum olunmuş və ölkə üçün ictimai təhlükə törədən qaçqınlara şamil edə bilməz. Göründüyü kimi bu maddələr sığınacaq hüququnu vurğulayır; yəni təhlükə və qorxu içində olan insanları qəbul etmək Razılığa gələn Dövlətlər üzərinə düşür.

Siyasi sığınacaq hüququ Azərbaycan Respublikasının Konstitusiyasında da özünü göstərir:

I. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir.

II. Siyasi əqidəsinə görə, habelə Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir (1.m.70., b.1,2.)

Beynəlxalq hüquq baxımından qaçqınların müdafiəsi qanunlarına gəlincə isə Razılığa gələn Dövlətlər milli təhlükəsizliyin və ya ictimai asayişin qorunması səbəbləri istisna olmaqla, öz ərazisində qanuni olaraq mövcud olan qaçqını deportasiya etməyəcək və qaçqının deportasiyası yalnız qanuni standartlara uyğun qəbul edildikdə baş verəcəkdir. Belə bir vəziyyətdə, sözügedən qaçqının sənədləri təqdim etməsinə və milli təhlükəsizlik səbəbi ilə bu mümkün olmadıqda, ittihamı aradan qaldırmaq üçün səlahiyyətli orqanlara müraciət etməsinə icazə verilir. Öhdəlik götürmüş dövlətlər qaçqına imkan verəcək ki, o, yuxarıda qeyd olunan qanun əsasında başqa ölkəyə daxil olmaq imkanını əldə etsin (5. s. 257). Bunu da qeyd etməliyik ki, Qaçqınların statusu haqqında Konvensiyadan başqa ölkəyə qeyri-qanuni girişlə bağlı müddəalara digər insan hüquqları müqavilələrində rast gəlinmir və bu, qaçqınların xeyrinə və onların müdafiə sisteminə xas olan digər müsbət meyar kimi qəbul edilir.

Burada digər mühüm məsələ – qaçqınların vətəndaşlıq məsələsidir. *Filipson* bu məsələyə qısa da olsa aydınlıq gətirmişdir. Onun fikrincə, "Vətəndaşlığın əldə edilməsi" məsələsi tamamilə dövlətin qərarından asılı olan, onun ərazi

suverenliyinə əsaslanan bir prosesdir və hakimiyyətlər "mümkün qədər" qaçqınların vətəndaşlıq əldə etmə yollarını təmin etməlidir; "mümkün qədər" ifadəsinin mənasına gəlincə isə müəllif, bunu belə izah edir: "hər bir dövlət qaçqının vətəndaşlıq tələbi ilə razılaşmayıb onu rədd etdiyi halda, hüquqi sənədlərini təfərrüatlı ilə bəyan etməyə borcludur. Bu, o deməkdir ki, dövlətlər digər xarici vətəndaşlara öz ölkələrində qalmağa icazə verdiyi kimi qaçqınların da eyni şəkildə ölkənin vətəndaşlığını əldə etməsinə icazə verməlidir" (15. s. 66).

### 2.1. Beynəlxalq hüquq baxımından qaçqınların statusu

Təbii ki, qaçqınların statusu haqqında 1951-ci il Konvensiyası və 1967-ci il Protokolu qlobal səviyyədə qəbul edilən və qaçqınlarla bağlı problemlərin müxtəlif hüquqi meyarlarını araşdıran ən mühüm sənədlərdir. Müəllifin də qeyd etdiyi kimi 1951-ci il Konvensiyası qaçqınlarla bağlı məsələlərin müxtəlif aspektləri ilə bağlı nisbətən əhatəli prinsip və qaydalar müəyyən etmişdir. Bununla belə, konvensiyada olan müddəaların əhatəliliyi və əhəmiyyətinə baxmayaraq, qaçqınların müəyyən edilməsi sahəsində və onun tətbiqinin coğrafi miqyasında bəzi məhdudiyyətlər vardır (17. s. 93). Bu məsələ konvensiyanın qlobal miqyas almasına və bütün dünyadan gələn qaçqınların oradakı müdafiədən yararlanmasına mane oldu. Bu məhdudiyyətlər arasında 1-ci maddəyə əsasən, Konvensiya yalnız 1951-ci ilin yanvarından əvvəl qaçqın olmuş şəxslərə şamil edilir və bu müddəa qeyd olunan tarixdən sonra qaçqın vəziyyətinə düşmüş şəxsləri əhatə etməsinə mane olur. Digər məhdudiyyət bundan ibarətdir ki, dövlətlər konvensiyanı yalnız Avropa qitəsi daxilindəki qaçqınlara tətbiq edilə bilərlər və Avropadan kənarda olan digər qaçqınlar istisna oluna bilər. Bu məhdudiyyətlər, xüsusilə sığınacaq probleminin ortaya çıxması və 1950-ci illərin sonu, 1960-cı illərin əvvəllərində dünyanın digər yerlərində sığınacaq axtaran qaçqınlar üçün yeni dalğanın yaranması (insanlara olan beynəlxalq dəstək baxımından) problemini yaratdı. Baş Assambleya bu protokolu 16 dekabr 1966-cı ildə (№ XXI 21891) Qətnamə ilə təsdiqlədi.[8]

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Nizamnaməsinə gəlincə isə bu nizamnamə Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının qaçqınlar üçün "beynəlxalq dəstək və davamlı həll yollarının axtarışı" ilə bağlı prinsipləri xüsusi təmin edən nizamnamədir ki, qaçqın hüquqlarının mühüm mənbələrindən biri hesab olunur. Amma diqqət etməliyik ki, bu nizamnamə bir tərəfdən Qaçqınlar üzrə Ali Komissarlığın beynəlxalq dəstək və davamlı həll yolları sahəsində rolunu izah edir, digər tərəfdən isə Qaçqınlar üzrə Ali Komissarlıqla Baş Assambleya, İqtisadi, Sosial və Mədəni Şura və digər ixtisaslaşmış qurumlar arasındakı əlaqəni ifadə edir (6. s. 563-564).

### 2.2. Ərazi Sığınacaq Bəyannaməsi və qaçqın statusu

Ərazi Sığınacaq Bəyannaməsinə[9] gəldikdə isə bu bəyannamə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyasının təklifi ilə hazırlanmış, 14 dekabr 1967-ci ildə Baş Assambleya tərəfindən yekdilliklə təsdiq edilmişdir (33/12 saylı Qətnamə). 1967-ci il bəyannaməsini qaçqın hüquqlarının mühüm mənbələrindən biri hesab etmək olar. Ərazi Sığınacaq Bəyannaməsinin mühüm məqamlarından biri də budur ki, sığınacaq istəyənlərə sığınacaq vermək, onlara beynəlxalq dəstək – yardım göstərmək məsuliyyəti beynəlxalq ictimaiyyətin və onun nümayəndəsinin üzərindədir; bu məsələlərə Birləşmiş Millətlər Təşkilatı qərar verir. Bu elanda da deyilir: Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin prinsiplərinin pozulması səbəbindən həyatı, bədəni, ruhu və azadlığı təhlükə altında olan insanların sığınacaq istəmək hüququ vardır (10. b.2.). Digər ölkələr beynəlxalq birliyə uyğun olaraq, qaçqınların ilk dəfə daxil olduqları ölkələrin (Birinci Sığınacaq Ölkələri) yükünü azaltmaq, o cümlədən onların bir qismini öz torpaqlarına qəbul etmək üçün lazımi tədbirlər görməlidir (həmin mənbə, m. 4.b.2).

Heç kim deportasiyaya və ya sərhəd məntəqəsindən geri qayıtmağa məhkum edilməməlidir, həmçinin qaçqın ölkəyə qayıtmağa və ya həyatı, canı və azadlığı təhlükə altında olan torpaqda qalmağa məcbur də edilməməlidir. Bu prinsip açıq-aydın səbəblərə görə qəbul edən ölkənin təhlükəsizliyinə təhdid hesab edilən və ya ağır cinayət törətməsi ilə bağlı qəti hökmə görə həmin ölkə üçün təhlükə hesab edilən

şəxslərə şamil edilməyəcək (həmin mənbə, m.5). Bu, onu deməyə əsas verir ki, qaçqınlıq yaşamq hüququ ilə məhdudlaşmır, burada insanın bütün maddi və mənəvi ehtiyacları da təmin olunur. Məhz bu baxımdan qaçqın olan şəxs bütün hallarda (bəzi məsələlər istisna olmaqla; məsələn, yaşadığı ölkədə hər hansı bir qanun pozuntusuna yol verdikdə) ona verilən imtiyazlardan istifadə etmək hüququna malikdir.

**Nəticə**

İslam dini və beynəlxalq hüquq baxımından qaçqınların hüquq və təminatlarında əsas müddəaları tədqiq və təhlil edərkən belə nəticəyə gəlmək olar ki, İslam dinində sığınacaq anlayışı *əman* adı ilə müqavilə kimi qeyd olunur. Məlum olduğu kimi *əman,* öz qanunauyğunluğunu Qurani-Kərimdən və Allah Rəsulunun sünnəsindən[10] alır. Ümumiyyətlə, müsəlman fəqihlər hər hasnı bir məsələdə ilk olaraq Qurani-Kərimə və sünnəyə əsasən hökm çıxarırlar ki, bu məsələlərdən biri də qaçqınlıq problemidir. Nəzərdən qaçırmamalıyıq ki, İslam dinində və beynəlxalq hüquqda qaçqın və sığınacaq məsələsi fərqli xarakter daşıyır; İslam dinində sığınacaq ideoloji və dini bir anlayışdır, lakin beynəlxalq hüquqda isə ərazi anlayışıdır; burada dövlət, məkan, ölkələr və bu ölkələrdə olan öhdəliklər daha çox önə çəkilir. İslam və beynəlxalq hüquqda qaçqın anlayışının fərqi bundan ibarətdir ki, beynəlxalq hüququn tərifində qaçqın öz ölkəsində zülmə məruz qalan, azadlığı və həyatı məhdudlaşdırılan şəxsdir, ancaq islam anlayışında isə qaçqın, təhlükə altında olduğu üçün İslam dövləti tərəfindən himayə olunmasını istəyən şəxsdir.

Beynəlxalq hüquq baxımından qaçqın məsələsinə daha çox irqi, dini, sosial qrupa mənsubiyyəti, siyasi fikrinə görə təqib qorxusu və bu kimi digər məsələlər prizmasından baxılır və buna görə də problemin dəqiq və hərtərəfli dəyərləndirilməsi qaçqının vəziyyətinə, daimi yaşadığı ölkəyə uyğun olaraq qiymətləndirilir və bu kimi məsələlər ətrafında araşdırmalar aparılır. Amma İslam hüquqnda dini ixtilaflar sığınacaqda əsas element hesab olunur. İslam hüququnda qaçqın, kafir və ya müqavilənin müddəalarını pozmuş zimmi kafir[11] olmalıdır. Buna görə də İslamda və beynəlxalq hüquqda iki qaçqın anlayışı arasında (ümumi və xüsusi) əlaqə yaranır.

Təbii ki, həm islam hüququnda, həm də beynəlxalq hüquqda qaçıqın məsələsində olan oxşar və fərqli yanaşmalara baxmayaraq, burada əsas məqsəd insan hüquqlarının qorunmasıdır ki, buna həm İslam dininin qanunları, həm də beynəlxalq normalar təkid etmişdir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Amid Zəncani. Siyasi hüquq. c. 3. Tehran: Əmir Kəbir, 1988.
3. Əbu Mənsur Camaləddin Həsən bin Yusif bin Muthər Hilli (Əllamə Hilli). Hökmlərin qaydaları. Tehran: Qom İslam nəşriyyatı institutu, 1992.
4. Fəlsəfi, Nüsrətullah . Beynəlxalq hüquq və İran hüququ üzrə təhsil hüququ. Tehran: Cəngəl, 2015.
5. Green. L. C. 2009. Refugee and refugee status, causes and treatment in historical-legal perspective, the refugee problem on universal, regional and national level, Institute of international relations of thessaloniki.
6. Guys Goodwin, Gill. 1998. Refugee in International law. Oxford, charedon press, Second edition, 1998.
7. İbn Bərrac, Məhzb. Əl-Aman və hökmlər. c. IX. Tehran: 1992.
8. İslam İnsan Hüquqları Bəyannaməsi.
9. Qaçqınların statusu haqqında Konvensiya
10. Qaçqınların Ərazi sığınacaq Bəyannaməsi
11. Qasmiyeh Yousef. Refugee status in Islam: concept of protection in Islamic Tradition. Journal of Refugee Study. 2011, № 24.
12. Musazadə, İbrahim; Kəhrizi, Rozita. Köçkünlük hüququ. Tehran: Macd, 2013.
13. Məhəmməd bin Əhməd Ərdəbili. Məcməul-faidə vəl-burhan. Qum: İslam Nəşriyyat Müəssisəsi, c. VII, 1988.
14. Nasiri, Məhəmməd. Beynəlxalq xüsusi hüquq. Tehran: Aqah, 2023.
15. Philipson .M. 1998. The International law and customs of ancient Greece and Rome. Rome University Press.
16. Prakaş, Sinha. Köçkünlük və beynəlxalq hüquq. Haaqa, Martinus Nijhoff, 1971.

17. Schnyder, F. The status of refugees in tntenational law. Sijthoff Leyden, Londen, 1996.
18. Şibani Sərxsi, Məhəmməd Bin Əhməd. Əl-Sir Əl-Kəbir. Beyrut: Darul-Kitab əl-Aləmiyyə 1997.
19. Tusi Məhəmməd bin Həsən. Ən-Nahayeh. Beyrut: Darul-Kitab əl-Ərəbiyyə, c. II, 1998.
20. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi.
21. Ziai Bigdali Məhəmmədrza. Ümumi beynəlxalq hüquq. Tehran: Gənc-e daneş, 2011.
22. Ziai Bigdali Məhəmmədrza. İslam və beynəlxalq hüquq. Tehran: Nəşriyyat şirkəti, 2006.
23. Zeydan Əbdülkərim. Qeyri müsəlmanların hüquqları. Bağdad: Əl-ulumu əl-İslamiyyə, 1976.

**Qeydlər:**

1. Şirk: Allaha-Təalaya şərik qərar vermək.
2. Fiqh: İslam ölkələrində hüquq sistemi.
3. Fəqih: İslam dinində mənbələrə (Quran, Sünnə, icma və ağıl) istinad edərək hökm çıxaran hüquqşünas alimə deyilir.
4. “Cəziyə” – vergi və xərac mənasındadır. İslam dinində can və mallarını qorumaq üçün kitab əhlindən alınan xəracdır. Əslində xristianlar və yəhudilər cəziyə ödəməklə müharibələrdə iştirak etmirdilər və İslam ordusu onların mallarını və canlarını müdafiə etməyə borclu idi. Müsəlmanlardan *vergi*, kitab əhlindən isə *cəziyə* alınırdı.
5. Hər üç vergi dedikdə *zəkat, xüms* və *cəziyə* nəzərdə tutulur.
6. Millətlər İttifaqı və ya Millətlər Liqasının (Eng: The League of Nations; French: Société des Nations) əsası 10 yanvar 1920-ci ildə Paris Sülh Konfransı tərəfindən qoyulmuşdur.
7. Nəzərə almaq lazımdır ki, ölkələr öz siyasətlərinə uyğun hərəkət edirlər və özlərini sığınacaq verməyə borclu hesab etmirlər.
8. Collection of International Instruments Relating to the Refugees. UNCHR. Geneva. 1988:3
9. Declaration of Territorial Asylum
10. Sünnə: İslam Peyğəmbərinin sözləri, əməlləri, hərəkətləri, rəftarı nəzərdə tutulur.
11. Zimmi kafir: Müsəlman ölkəsində yaşayan və İslam hökmlərinə əsasən cəziyə verməli olan kitab əhli nzərdə tutulur.

## Резюме

**Хабиль Гурбанов**

### Основные положения прав и гарантий беженцев с точки зрения исламского права и международного права (сравнительный анализ)


Проблема беженцев – одна из тем, которую необходимо исследовать в современную эпоху. Актуальная тема – глобальная проблема, которая волнует не только руководителей стран, но и исследователей.

В этой статье, ссылаясь на Священный Коран, Конституцию Азербайджанской Республики, Исламскую декларацию прав человека, Всеобщую декларацию прав человека, Конвенцию о статусе беженцев, Территориальную декларацию беженцев, а также авторитетные труды авторов, проблема защиты вынужденных переселенцев, социальные и экономические права беженцев, статус беженцев, схожие и разные аспекты, а также другие необходимые вопросы, связанные с беженцами, были проанализированы в сравнительном аспекте по исламскому и международному праву.


***Ключевые слова:*** *Исламская религия, исламское право, международное право, международные документы, беженец, перемещенное лицо, убежище.*

## Summary

### Habil Gurbanov

### Basic provisions in the rights and guarantees of refugees from the point of view of Islamic law and international law (comparative analysis)

The refugee problem is one of the topics that needs to be investigated in the modern era. The current topic is a global problem that concerns not only country leaders, but also researchers.

In this article, referring to the Holy Quran, the Constitution of the Republic of Azerbaijan, the Islamic Declaration of Human Rights, the Universal Declaration of Human Rights, the Convention on the Status of Refugees, the Territorial Declaration of Refugees, as well as the authors' authoritative works, the issue of the protection of internally displaced persons, the social and economic rights of refugees, the status of refugees, similar and different aspects, as well as other necessary issues related to refugees, were analyzed in a comparative aspect according to Islamic and international law.


***Keywords:*** *Islamic religion, Islamic law, international law, international documents, refugee, displaced person, asylum*.